**Tibb işçisini məlumatlandırma məktubu**

06.10.2025

**Mövzu: Salbutamol inhalyasiya üçün dozalanmış aerozol dərman vasitəsinin təyin edilmiş dozası ilə bağlı informasiyanın vurğulanması.**

Hörmətli tibb işçisi,

Bu məktubun məqsədi Salbutamol inhalyasiya üçün dozalanmış aerozol dərman vasitəsinin təyin edilmiş dozası ilə bağlı informasiya barədə Sizi məlumatlandırmaqdır. Bu məktub "GlaxoSmithKline Export Limited" şirkətinin verdiyi məlumatlara əsasən, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi "Analitik Ekspertiza Mərkəzi" publik hüquqi şəxsinin Farmakonəzarət şöbəsi ilə razılaşdırılaraq hazırlanmışdır. Məktuba www.pharma.az internet saytından da baxa bilərsiniz.

| |
|---|
| İnhalyatorun tərkibində yalnız 200 inhalyasiya (doza) üçün nəzərdə tutulmuş salbutamol vardır. 200 inhalyasiyadan sonra inhalyatorun püskürmə mexanizmi texniki olaraq işləsə də, pasiyent təyin edilmiş dozaya uyğun salbutamol əldə edə bilməyəcək. |

**Xülasə**

- İnhalyatorun içərisində təyin olunmuş salbutamol dozasının olub-olmadığını müəyyən etmək üçün istifadə edilən silkələmə, çəkisini ölçmək və ya suya salmaq kimi üsullar etibarlı hesab edilmir.
- Buna görə də, inhalyatorun içərisində təyin edilmiş doza bitdikdən sonra səhvən istifadənin qarşısını almaq üçün pasiyent istifadə etdiyi inhalyasiyaların sayını qeyd etməlidir.
- Pasiyentlərdə ehtiyat inhalyatorun mövcudluğu məqsədəuyğun hesab edilə bilər. Əgər pasiyentin birdən artıq inhalyatoru varsa, hər birinin istifadəsi ayrıca izlənilməlidir.

**Təhlükəsizlik probleminin təsviri**

**Yenilənmiş içlik vərəqə**

Həmçinin, bu məktub vasitəsilə bildirmək istəyirik ki, Salbutamol dərman vasitəsinin içlik vərəqəsində müəyyən dəyişikliklərin edilməsi nəzərdə tutulur. Bu dəyişikliklə bağlı Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin "Analitik Ekspertiza Mərkəzi" publik hüquqi şəxsinə müraciət ediləcəkdir.

İçlik vərəqəyə xəstənin təhlükəsizliyini artırmaq və Salbutamol inhalyasiya üçün dozalanmış aerozol dərman vasitəsinin istifadəsi ilə bağlı daha aydın təlimat üçün dəyişikliklər ediləcəkdir.

İçlik vərəqədə xüsusilə, təklif olunan dəyişikliklər aşağıdakılardır:

**Ehtiyat tədbirlərinin əlavə edilməsi:** Salbutamol inhalyasiya üçün dozalanmış aerozol dərman vasitəsinin təsadüfi istifadəsi ilə bağlı potensial riskin azaldılması.

**Mövcud xəbərdarlıqların yenilənməsi:** Pasiyentlərin zəruri hallarda tibbi məsləhət almalarının əhəmiyyətini daha da vurğulamaq məqsədilə aşağıdakı bölmələrdə dəyişikliklərin edilməsi nəzərdə tutulur.

- Tərkibi
- Buraxılış forması
- İstifadə qaydası və dozası
- Xüsusi göstərişlər və ehtiyat tədbirləri

Bu yenilənmələr tibb işçisi və pasiyentlərin salbutamol tərkibli dərman vasitəsi ilə əlaqəli potensial riskləri daha yaxşı müəyyən etmələri və aradan qaldırmaları üçün nəzərdə tutulmuşdur.

**Əlavə təsir haqqında bildirişin vacibliyi**

Salbutamol tərkibli dərman vasitələrini istifadə edərkən yuxarıda göstərilən xəbərdarlıqlara diqqət edilməsini və yaranan əlavə təsirlər haqqında məlumatları Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Analitik Ekspertiza Mərkəzi" publik hüquqi şəxsinin Farmakonəzarət şöbəsinə (Ünvan: AZ1065, Azərbaycan Respublikası; Bakı şəh., Yasamal rayonu, C.Cabbarlı küç.34.; Faks: (+99412) 596-07-16; e-mail: adr@pharma.az; Tel.:(+99412) 596-05-20, Qaynar xətt (+99412) 596-07-12), Mob.: (+99450) 246-93-84) və Salbutamol dərman vasitəsinin istifadəsi zamanı yaranan əlavə təsirləri pm.safety@gsk.com email ünvanına/ https://gsk.public.reportum.com elektron poçtu vasitəsilə farmakonəzarət üzrə məsul şəxsə bildirməyinizi xatırladırıq.

Hörmətlə,

Farmakonəzarət üzrə məsul şəxs

Nuranə Ağayeva